# Azərbaycanın yeni dövrə qədəm qoyduğu gün

İyunun 15-i müasir tariximizə Milli Qurtuluş Günü kimi daxil olub. Bu tarix təsadüfi qeyd edilmir. Belə ki, Azərbaycan xalqının çoxəsrlik dövlətçilik salnaməsinə öz imzasını atmış ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı günü ilə bağlıdır. 1969-1982-ci illərdə Azərbaycana uğurla başçılıq edən, 1982-1987-ci illərdə SSRİ kimi fövqəl dövlətin rəhbərliyində önəmli yer tutaraq adını dünyanın XX əsr siyasi tarixinə qızıl hərflərlə yazan Heydər Əliyev Azərbaycanda hakimiyyətə ikinci dəfə 1993-cü ilin iyununda gəlib. Bu qayıdış Azərbaycan xalqının israrlı tələbi, o zamankı iqtidarın və ictimai-siyasi qüvvələrin xahişləri əsasında baş verib.

Orta və ya yaşlı nəsil 23 il bundan əvvəlki Azərbaycanın durumunu yaxşı xatırlayır. Ölkə sözün əsl mənasında məhv olmaq, parçalanmaq ərəfəsində idi. 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini qazanmış Azərbaycan 1993-cü il iyunun 15-ə qədərki müddətdə çoxsaylı dövlət çevrilişlərinə cəhdlə böhran, xaos və çaxnaşmalarla qarşılaşmışdı. Həmin dövrdə Azərbaycana rəhbərlik edən şəxslər qətiyyətsizlik və iradəsizlik nümayiş etdirdilər. Müharibə şəraitində olan Azərbaycanda Silahlı Qüvvələri yarada bilməmişdilər. Bundan istifadə edən erməni qəsbkarları isə öz məkrli niyyətlərini həyata keçirirdilər.

Belə vəziyyətdə Azərbaycanın əsl xilaskara böyük ehtiyacı vardı. Artıq hamıya aydın idi ki, paytaxtdakıların heç biri – nə iqtidar, nə də o dövrdə hakimiyyətə iddialı olan müxalifət partiyaları ölkəni düşdüyü iflic vəziyyətdən çıxara bilməyəcək.

Həmin vaxt hamının nəzərləri Naxçıvana – böyük siyasətçi və dövlət xadimi Heydər Əliyevə dikildi. Azərbaycanın yalnız Heydər Əliyevin təcrübəsi, müdrikliyi, iradəsi ilə xilas olunacağına heç kim şübhə etmirdi. Böyük öndər son ümidlərin yeganə ünvanı idi və buna görə də ölkənin və xalqın bu bəladan qurtulması, dövlətin, dövlətçiliyin xilas edilməsi məsələsində oynayacağı rolu da, gücünü də hamı aydın dərk edirdi.

Gəncədəki qiyam ölkəni vətəndaş müharibəsi həddinə çatdırd. Ölkənin qardaş qırğınından xilası ayın 9-da Naxçıvandan Bakıya dəvət edilən Heydər Əliyevin üzərinə ümummilli vəzifə borcu qoydu. Hamı kənara çəkilmişdi, çünki Heydər Əliyevdən başqa kimsənin bacaracağı iş yox idi. Heç kim risk edib S.Hüseynovun qiyamçı dəstəsinin qarşısına çıxmaq istəmirdi. Böyük öndər həmin ağır günlərdə bütün ölkənin, o cümlədən AXC-Müsavat yetkililərinin nicat umduğu yeganə şəxs idi. O vaxt Heydər Əliyevin hakimiyyətə qayıdışı təkcə siyasi tələb deyildi. Bu, artıq dövrün ictimai tələbatına çevrilmişdi. Hətta iş o yerə çatmışdı ki, o vaxtkı iqtidar təmsilçiləri parlamenti iyunun 15-də keçirilən iclasında Heydər Əliyevdən öz təhlükəsizlikləri üçün təminat istəmişdi. Böyük siyasətçinin Ali Sovetə sədrliyi məsələsi həmin gün öz həllini tapdı və spiker postuna seçildi. Bu, Azərbaycanın qurtuluş anı idi və iyunun 15-i tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bundan sonra Heydər Əliyevin üzərinə düşən siyasi-ictimai yükün ağırlığı daha da artdı. Böyük şəxsiyyət iyunun 24-dən MM-in qərarı ilə prezidentin səlahiyyətlərini həyata keçilməklə artıq bütün dövlət strukturlarına rəhbərlik edirdi.

Tarixçilərin və siyasətçilərin bu gün və gələcəkdə də o dövrü müntəzəm şəkildə araşdıracağı mühüm məqamlar vardır. Bu məqamlardan biri "Heydər Əliyevin qayıdışı Azərbaycana nə verdi" sualı ilə bağlıdır. Həmin suala son 23 ildə Azərbaycanın keçdiyi inkişaf yoluna nəzər salmaqla cavab tapa bilərik. 1993-cü ilin iyununda "Bu ağır vəziyyətdən çıxmaq üçün—baxmayaraq ki, mən bunu istəmirəm,- Ali Sovetin sədri kimi fəaliyyət göstərməyə hazıram. Mən bu yola ancaq xalqın ağır vəziyyətdə çıxmasında müəyyən fəaliyyət göstərmək üçün gedirəm, başqa məqsədim yoxdur" -deyə bəyan edən Heydər Əliyev xalqın müdrikliyinə və böyük potensialına arxalanaraq hamını birləşdirdi və ölkəni böhranlı vəziyyətdən çıxarmağa nail oldu. Heydər Əliyev siyasi bacarığı gücünə ölkəni vətəndaş müharibəsi təhlükəsindən, seperatizmdən, ictimai-siyasi pərakəndəlikdən və anarxiyadan xilas etdi, xalqı yenidən vahid məfkurə ətrafında birləşdirdi. Müstəqil Azərbaycan yalnız Heydər Əliyevin qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirə bildi. Ölkəmiz beynəlxalq aləmdə özünə layiqli yer qazandı. Bir sözlə, dahi şəxsiyyətin qayıdışı ilə respublikamızın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında dönüş yarandı, beynəlxalq normalara uyğun sivil və hüquqi dövlət quruculuğu başlandı. Milli Ordunun formalaşması, nizami silahlı qüvvələrin yaradılması, torpaqların müdafiəsi ilə bağlı mühüm addımlar atıldı.

Silahlı Qüvvələrin maddi-texniki bazası getdikcə yaxşılaşdı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı daha da artdı, döyüş ruhu, düşmən üzərində qələbə çalmaq ovqatı yüksəldi. Eyni zamanda Azərbaycanın təbii sərvətlərindən, coğrafi strateji mövqeyindən milli mənafelərə uyğun istifadə edilməsinə yönəlmiş beynəlxalq iqtisadi sazişlər imzalandı. Yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inamdan istifadə edərək 1994-cü il sentyabrın 20-də dünyanın 15 ölkəsindən 33 neft şirkətinin iştirakı ilə "Əsrin müqaviləsi" adlı ilk neft müqaviləsi imzalandı. Daha sonra – 1995-ci il noyabrın 12-də ulu öndərin təşəbbüsü ilə hazırlanmış ilk Milli Konstitusiyamız qəbul olundu.

Nəhayət, bu deyilənlərdən belə qənaətə gəlmək olar ki, ümummilli lider qayıdışı ilə başlıca qayəsini – müstəqillik, azərbaycançılıq, dövlətçilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni milli ideologiyanın əsasını qoydu. Heydər Əliyev erası dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş milyonlarla azərbaycanlını milli məfkurə ətrafında birləşdirib onların tarixi vətənlərinə bağlanmasını, Azərbaycan diasporunun yaradılmasını təmin etdi.

İqtisadi islahatların aparılması, bazar iqtisadiyyatının bərqərar olması və inkişafının təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi prioritet sahələr idi.

Görülən işlər, həyata keçirilən tədbirlər hər bir vətəndaşın rifahının yüksəlməsinə xidmət edib. Ulu öndərin başladığı strategiya son 12 ildir möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda Azərbaycanda həyat səviyyəsi qat-qat yüksəlib. Yoxsulluq 49 faizdən 5 faizə düşüb. Yerli sahibkarlar ordusu formalaşıb. Son 12 ildə 1,5 milyon iş yeri açılıb. İqtisadi inkişaf sürətinə görə respublikamız regionda lider dövlətə çevrilib. Beynəlxalq reytinq agentlikləri də ölkəmizin inkişafını yüksək qiymətləndirib. İndi regionda heç bir layihə Azərbaycanın razılığı və ya iştirakı olmadan həyata keçirilə bilməz. Bütün bunların hamısı ümummilli lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də siyasi hakimiyyətə qayıdışından sonra reallaşıb. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək: "İndiki müstəqil Azərbaycan Heydər Əliyevin şah əseridir. Azərbaycanda Heydər Əliyevin siyasəti yaşayır, möhkəmlənir, yeni formalarla zənginləşir".

**Ramiz HÜMMƏTOV,**
**Bakı şəhəri 31 saylı**
**Dövlət Notariat Kontorunun**
**notariusu.**